# AZƏRBAYCAN-BÖYÜK BRITANIYA ƏMƏKDAŞLIĞI

Jalə Musa İSMAYILOVA*

**Xülasə**: Məqalə Azərbaycan Respublikası iləBirləşmiş Krallığı arasındakı ikitərəfli əlaqələrin kifayət qədər uzun və zəngin tarixinə həsr edilib. Müəllif iki dövlət arasında XX əsrin sonundan XXI əsrin başlanğıcınadək olan dövr ərzindəki ticarət münasibətlərinə, neft amilinə və humanitar əlaqələrə diqqət yetirir. Məqalədə Azərbaycan və Böyük Britaniya arasındakı ikitərəfli əlaqələr beynəlxalq əməkdaşlıq sistemi çərçivəsində tədqiq edilir, beynəlxalq miqyasda əməkdaşlıqla bağlı bir çox müsbət və mənfi cəhətlər təhlil edilir. Dünyadakı inteqrasiya proseslərinin sürətləndiyi, enerji siyasətinin mühüm əhəmiyyət kəsb etdiyi bir zamanda Azərbaycan Respublikasının beynəlxalq əlaqələrinin və xüsusilə də Böyük Britaniya ilə olan münasibətlərinin öyrənilməsi vacib məsələlərdəndir. Hazırda enerji siyasəti və təhlükəsizlik amili müasir dünyada ən çox araşdırılan problemlərdən biridir. Qloballaşma, enerji resurslarının öyrənilməsi və bu kimi başqa aktual məsələlərə dair müxtəlif müəlliflərin çeşidli məqalələri, kitabları nəşr olunmuşdur. Mövzunun aktuallığını şərtləndirən amillərdən biri də müasir dövrdə dünyadakı inteqrasiya prosesinin geniş vüsət alması və bu prosesdə dünya xalqları ilə bərabər Azərbaycan xalqının da iştirak etməsidir. Hazırda dünyada bir çox regional və qlobal layihələr hazırlanaraq həyata keçirilir. Bu isə, öz növbəsində, ciddi elmi tədqiqat mövzusudur. Müasir dünyanın başlıca inkişaf istiqamətlərindən biri olan qloballaşma problemi çərçivəsində AzərbaycanBöyük Britaniya əlaqələri mühüm strateji əhəmiyyət kəsb edir. Bu əlaqələr əsasını təşkil edən neft amili isə iki ölkənin müxtəlif beynəlxalq platformlarda qarşılıqlı əməkdaşlıq və tərəfdaşlıq prinsiplərinə əsaslanmalarını labüd edir.

***Açar Sözlər:*** *Böyük Britaniya, Beynəlxalq Münasibətlər, Neft Layihələri, Xəzər, BP, Qafqaz*

**Azerbaijan-Great Britain Cooperation**

**Summary:** The article is about of relationship between Azerbaijan and UK devoted to a long and long period of time in relation to its two histories. The author focuses on trade relations between the two countries between the end of the 20th century and the beginning of the 21st century, the oil factor and humanitarian relations. The article explores the bilateral relationship between Azerbaijan and Great Britain, and many business and benefits related to cooperation on an international scale.

Currently, the energy policy and security factor is one of the most studied problems in the modern world. A variety of articles and books by various authors have been published on globalization, the study of energy resources, and other relevant issues. The fact that the subject of bilateral and multilateral relations within the framework of the international relations system has become a subject of wide discussion in modern historiography indicates its relevance. Many scientific works have been written on this topic in different languages, rich materials and statistical information on the subject have been given in the scientific literature and periodical press. One of the factors determining the relevance of the topic is the fact that the process of integration in the world is expanding in the modern era and the people of Azerbaijan are participating in this process along with the peoples of the world. Currently, many regional and global projects are being developed and implemented in the world. This, in turn, is a subject of serious scientific research. Within the framework of the problem of globalization, which is one of the main directions of development of the modern world, relations between Azerbaijan and Great Britain are of strategic importance. The oil factor, which forms the basis of these relations, requires the two countries to be based on the principles of mutual cooperation and partnership on various international platforms.

***Key Words:*** *Böyük Britaniya, Beynəlxalq Münasibətlər, Neft Layihələri, Xəzər, BP, Qafqaz*

## GİRİŞ

Azərbaycan Respublikasının Böyük Britaniya ilə beynəlxalq əməkdaşlıq sistemi çərçivəsindəki əlaqələrinin əhatəli öyrənilməsi həm elmi, həm də siyasi iqtisadi baxımdan çox aktualdır. Bütün bunlar mövzunun tədqiq edilməsinin vacibliyini bir daha sübut edir. Yeni dünya nizamının xarakterik xüsusiyyətlərindən biri isə məhz qloballaşma prosesidir. Məhz bu səbəbdən, Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında qurulmuş ikitərəfli münasibətlərdən savayı, bu ölkələrin beynəlxalq əlaqələr sistemi çərçivəsində çoxtərəfli əməkdaşlıq praktikasından irəli gələn bütün tələbləri yerinə yetirmələri və qarşılıqlı münasibətləri tənzimləyərkən ilk növbədə beynəlxalq hüququn subyekti kimi üzərilərinə düşən vəzifələri əldə rəhbər tutmaları olduqca vacibdir. Belə ki, Azərbaycan və Böyük Britaniya arasındakı ikitərəfli münasibətlər yeni dünya nizamının

---

* T.ü.f.d., Bakı Avrasiya Universiteti, Regionşünaslıq və İqtisadiyyat Fakültəsi zhala.ismayilova2016@gmail.com ORCID NO: 0009-0005-8198-8544.

bərqərar olması fonunda inkişaf etdirilir. İlk növbədə bu əməkdaşlığın tarixi inkişaf yoluna diqqət etmək lazımdır.

## 1. Münasibətlərin Tarixi

Azərbaycanla Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında ilk əməkdaşlıq əlaqələri XIX əsrin sonu, XX əsrin əvvəllərində Azərbaycan çar Rusiyası tərkibində olduğu zamanlar yaranıb. XX əsrin ilk illərində ingilis şirkətləri Bakının neft müəssisələrinə 60 milyon manat kapital qoymuşdular. 1904-cü ildə İngiltərə ağ neftə olan tələbatının 47%-ni Bakının hesabına ödəyib. Azərbaycanda Krekinq qurğusunun texniki avadanlığını istehsal etmək üçün ilk lisenziyanı "Gikkers limited" adlı ingilis şirkəti alıb.1918-ci ilin yanvar ayında ingilis ekspedisiyası Bağdaddan Bakıya gəlib. Azərbaycan neft mədənlərinin Birləşmiş qüvvələrin (Almaniya və Osmanlı imperiyası) əlinə keçməsinin qarşısını almaq məqsədi güdən bu ekspedisiya general Lioner Danstervilin başçılığı ilə qısa müddətli döyüşlərdən sonra həmin ilin sentyabrında İrana getməli olub. 30 oktyabrda Mudros sülh müqaviləsi imzalandıqdan sonra Britaniya döyüş bölməsi ikinci dəfə Bakıya qayıdıb və 1920-ci ilə qədər burada qalıb. Bu çətin dövrdə general Tompsonun başçılığı altında Britaniya hərbi missiyası Azərbaycanda stabilliyin əldə olunmasında mühüm rol oynayıb.

Ötən əsrin sonlarındakı geosiyasi dəyişikliklərdən sonra Qərb ölkələrinin Qafqaz regionuna olan marağı son dərəcə artmışdır. Bölgənin əlverişli geostrateji mövqeyi və zəngin təbii ehtiyatları şübhəsiz ki, bu məsələdə mühüm rol oynamışdır. Qərbi Avropa ölkələrinin bölgəyə olan marağının tarixi kökləri vardır [11]. Sovet İttifaqının dağılması kimi tarixi fürsəti çox yaxşı dəyərləndirən Qərb ölkələri köhnə maraqlarını əldə rəhbər tutaraq Cənubi Qafqaz regionuna nüfuz etmənin yollarını axtarmağa başlamışdılar. Dünyada baş verən dəyişikliklər Böyük Britaniyanın xarici siyasət doktrinasına da təsirsiz ötüşməmişdir. Təsadüfi deyil ki, keçmiş SSRİ coğrafiyasında yaranmış yeni dövlətlərin bir-birinin ardınca suverenliyini elan etdiyi bir zamanda gənc Azərbaycan Respublikasının müstəqilliyini tanıyan ilk dövlətlərdən biri də 31 dekabr 1991-ci il tarixdə məhz Birləşmiş Krallıq olmuşdur. XXI əsrin əvvəllərindən etibarən, dünyanın bütünləşməsi, vahidləşməsi tendensiyaları müşahidə olunmaqdadır.

Beləliklə, qeyd edildiyi kimi Azərbaycan 1991-ci ilin 18 oktyabr tarixində müstəqilliyini bərpa etdikdən sonra Birləşmiş Krallıq Qərb ölkələri arasında Azərbaycanın müstəqilliyini tanıyan ilk ölkələrdən olmuşdur. Birləşmiş Krallıq 26 dekabr 1991-ci il tarixində Azərbaycanın müstəqilliyini tanımış, iki ölkə arasında diplomatik münasibətlərin əsası 1992-ci ilin 11 mart tarixində qoyulmuşdur.

Birləşmiş Krallığın Bakıdakı səfirliyi 1993-cü ilin sentyabr ayında açılmışdır. Ölkənin Azərbaycanda hazırkı səfiri Ceyms Layl Şarp 2018-ci ildə təyin edilmişdir.

Azərbaycanın Londondakı səfirliyi 1994-cü ilin yanvar ayında açılmışdır. 2021-ci ilin iyul ayından etibarən Azərbaycanın Birləşmiş Krallıqdakı fövqəladə və səlahiyyətli səfiri Elin Süleymanovdur.

Azərbaycan Respublikası və Birləşmiş Krallıq arasında münasibətlər strateji tərəfdaşlıq xarakteri daşıyır. Tərəflər arasında yüksək-səviyyəli siyasi dialoq, energetika, ticarət və investisiya, mədəni və humanitar sahələri əhatə edən geniş əhatəli əməkdaşlıq və güclü ikitərəfli əlaqələr mövcuddur.

İki ölkə arasında etimada söykənən qarşılıqlı münasibətlərin əsas təməllərindən biri də ikitərfli yüksək səviyyəli səfərlərdir.

2.Iki ölkə arası qarşılıqlı yüksək səfərlər

Ötən illər ərzində iki ölkə arasında qarşılıqlı yüksək səviyyəli səfərlər Azərbaycan və Birləşmiş Krallıq arasında əməkdaşlığın inkişafına öz töhfəsini vermişdir. Azərbaycan Prezidenti Heydər Əliyevin 19-23 fevral 1994-cü il və 19-24 iyul 1998-ci illərdə Birləşmiş Krallığa baş tutan rəsmi səfərləri iki ölkə arasında qarşılıqlı faydalı əməkdaşlığın gələcək

inkişafı üçün güclü bünövrə yaratmışdır. 1996-cı ilin yanvar ayında Britaniyanın xarici işlər naziri Malkolm Rifkind Azərbaycana səfər etmiş və Prezident Heydər Əliyev və digər dövlət rəsmiləri ilə görüş keçirmişdir. Səfər zamanı Azərbaycan və Birləşmiş Krallıq arasında tərəflərin ikitərəfli ticarət və investisiya imkanlarının artmasına verdiyi əhəmiyyətin göstəricisi kimi "İnvestisiyanın təşviqi və qorunması üzrə müqavilə" imzalanmışdır.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 13-14 dekabr 2004-cü il və 13-15 iyul 2009-cu il tarixlərində Birləşmiş Krallığa baş tutan səfərləri bir çox sahələr üzrə ikitərəfli münasibətlərin inkişafına və dərinləşməsinə öz töhfəsini vermişdir. Prezident İlham Əliyevin, həmçinin 2012-ci ilin 6-7 avqust tarixlərində Londonda keçirilən Olimpiya oyunlarında iştirak üçün Birləşmiş Krallığa işgüzar səfəri baş tutmuş və həmin səfər zamanı İ. Əliyev Birləşmiş Krallığın Baş naziri Deyvid Kamerun ilə görüşmüşdür.

2013-cü ilin dekabr ayında Birləşmiş Krallığın xarici işlər naziri Vilyam Haq "Şahdəniz 2" layihəsinin imzalanma mərasimində iştirak məqsədi ilə Azərbaycana səfər etmiş, səfər zamanı Azərbaycan Prezidenti və xarici işlər naziri ilə görüş keçirmişdir.

2018-ci ilin 26 aprel tarixində Birləşmiş Krallığın Baş naziri Tereza Mey-in dəvəti əsasında Azərbaycan Prezidenti İlham Əliyevin Birləşmiş Krallığa bir günlük səfəri baş tutmuşdur. Səfər zamanı Azərbaycan Respublikasının Prezidenti Baş nazir Tereza Mey ilə görüşmüş, görüşdən sonra hər iki dövlət başçısının iştirakı ilə Azərbaycan Respublikası Dövlət Neft Şirkəti (SOCAR), "BP Exploration (Azerbaijan) Limited" şirkəti və SOCAR-ın Ortaq Neft Şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorunda D230 perspektiv blokunun birgə kəşfiyyatı və işlənilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır. Londona həmin səfəri zamanı Prezident İlham Əliyev Britaniyanın Avropa və Amerika regionu üzrə Dövlət naziri Alan Dankan, eləcə də Birləşmiş Krallıq parlamentində Azərbaycan üzrə Qrupun üzvləri ilə görüşmüşdür.

1997-ci ilin mart ayında Azərbaycan Parlamentində "Birləşmiş Krallıq ilə Parlamentlərarası Dostluq Qrupu" yardılmışdır. Qrupun hazırkı sədri Milli Məclisin deputatı Soltan Məmmədovdur.

Birləşmiş Krallıq Parlamentində də 2014-cü ildən etibarən Azərbaycan üzrə Qrup fəaliyyət göstərir. Qrupun hazırkı sədri İcmalar Palatasının deputatı Bob Bləkməndir.\COVID-19 pandemiyasının yayılmasına baxmayaraq, 2021-ci ilin ilk yarısında Birləşmiş Krallıqdan Azərbaycana iki dövlət nazirinin səfəri baş tutmuşdur:

2021-ci ilin 8-10 fevral tarixlərində Birləşmiş Krallığın Avropa Qonşuluğu və Amerika regionu üzrə naziri xanım Vendi Morton Birləşmiş Krallıq və Azərbaycan arasında ikitərəfli xarici siyasət dialoqunda iştirak məqsədi ilə Azərbaycanda səfərdə olmuşdur. Nazir Morton səfər zamanı Prezident İlham Əliyev və xarici işlər naziri Ceyhun Bayramov, eləcə də Azərbaycanın energetika və təhsil nazirləri, həmçinin Milli Məclisin spikeri ilə görüşərək ikitərəfli əlaqələr və regionda ümumi təhlükəsizlik məsələləri ətrafında fikir mübadiləsi aparmışdır.

2021-ci ilin 20-23 may tarixlərində Birləşmiş Krallığın İxracat üzrə naziri Qraham Stüart Birləşmiş Krallıq və Azərbaycan arasında Birgə hökümətlərarası Komissiyanın iclasında iştirak məqsədi ilə Azərbaycanda səfərdə olub. Səfər zamanı nazir Stüart ikitərəfli əməkdaşlığın gələcək perspektivləri, eləcə də iki ölkə arasında mövcud ticarət və iqtisadi əlaqələri gücləndirmək istiqamətində müzakirələr aparmaq üçün Prezident İlham Əliyev, eləcə də Azərbaycanın energetika, iqtisadiyyat, nəqliyyat, kommunikasiya və yüksək texnologiyalar və ekologiya və təbii sərvətlər nazirləri ilə görüşüb. Azərbaycanda olarkən Qraham Stüart, həmçinin yenicə yaradılmış Britaniya Ticarət və Sənaye Palatasının açılış mərasimində iştirak edib.

2022-ci ilin 11-13 iyul tarixlərində Milli Məclisin sədri Sahibə Qafarova Birləşmiş Krallığa ilk dəfə rəsmi səfər etmişdir. Səfər çərçivəsində S.Qafarova Britaniya Parlamentinin

Lordlar və İcmalar Palatasının spikerləri, Birləşmiş Krallıq Parlamentində Azərbaycan üzrə Qrupun üzvləri və Britaniyalı dövlət rəsmiləri ilə görüşmüşdür.

2022-ci ilin 18-20 sentyabr tarixlərində Milli Məclisin sədri Sahibə Qafarova Ülyahəzrət Kraliça İkinci Yelizavetanın vida mərasimində iştirak etmək üçün Londona səfər etmişdir. O, həmçinin Kral Üçüncü Çarlz adından verilmiş rəsmi ziyafətdə iştirak etmişdir.

**2023-cü il Fevralın 22-də Azərbaycanın Xarici işlər naziri Ceyhun Bayramov Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının Xarici İşlər, Birlik Ölkələri və İnkişaf Ofisində Parlamentlə əlaqələr üzrə dövlət katibinin müavini, Avropa üzrə dövlət naziri Leo Dokerti ilə görüşüb.**

Görüşdə Azərbaycanla Böyük Britaniya arasında ikitərəfli münasibətlərin hazırkı vəziyyəti, müxtəlif sahələr üzrə əməkdaşlığın inkişaf perspektivləri, habelə cari regional vəziyyət müzakirə olunub.

Söhbət zamanı neft, qaz, sərmayə qoyuluşu, ticarət, nəqliyyat, yaşıl enerjiyə keçid istiqamətində əməkdaşlığın perspektivləri, təhsil və humanitar sahələr ətrafında fikir mübadiləsi aparılıb.

Nazir ölkələrimiz arasında enerji sahəsində əlaqələrin xüsusi əhəmiyyətini diqqətə çatdıraraq Azərbaycanın təşəbbüsü və iştirakı ilə regionda həyata keçirilən irimiqyasli enerji layihələri haqqında ətraflı məlumat verib. Onların Avropanın enerji təhlükəsizliyinin təmin edilməsində əhəmiyyətli rolunu vurğulayıb. Böyük Britaniyanın şirkətlərinin Azərbaycanda uğurlu fəaliyyətindən məmnunluq ifadə olunub. Eyni zamanda, Birləşmiş Krallığın Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin minalardan təmizlənməsinə verdiyi töhfəni, bu ərazilərin yenidən qurulması və bərpası işlərində onların yaxından iştirak niyyətləri təqdir olunub. Ölkələrimiz arasında təhsil sahəsində uğurlu əməkdaşlığın daha da inkişafının vacib olduğu bildirilib.

Görüş zamanı tərəflər Ermənistanla Azərbaycan arasında normallaşma prosesinin, sülh sazişi üzrə danışıqların cari vəziyyəti, Laçın yolunda etirazların müxtəlif aspektləri üzrə müzakirə aparıblar.

Böyük Britaniyanın dövlət naziri Leo Dokerti, öz növbəsində, ölkəsinin Azərbaycan ilə ikitərəfli əməkdaşlığın inkişaf etdirilməsində maraqlı olduğunu və Azərbaycan–Böyük Britaniya münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb. Bölgədə sülhə mane olan çətinliklərin aradan qaldırılmasının vacib olduğunu, bu istiqamətdə Birləşmiş Krallığın dəstək göstərməyə hazır olduğunu bildirib.

Görüşdə tərəflər arasında qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

2023-cü ilin 4 may tarixində Milli Məclisin sədri Sahibə Qafarova Kral Üçüncü Çarlzın tacqoyma mərasimində iştirak etmək üçün Birləşmiş Krallığa səfər etmişdir. 2023-cü ilin 20-22 iyun tarixlərində Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov Birləşmiş Krallıqda işgüzar səfərdə olmuşdur. Səfər çərçivəsində C.Bayramov Birləşmiş Krallığın xarici işlər naziri Ceyms Kleverli ilə görüşmüş, həmçinin Birləşmiş Krallığın Avropa regionu üzrə dövlət naziri Leo Dokertinin iştirakı ilə iki ölkə arasında xarici siyasət dialoqunun növbəti iclası keçirilmişdir.

2023-cü il ərzində Birləşmiş Krallığın Avropa regionu üzrə dövlət naziri Leo Dokerti iki dəfə (22.02.2023 və 22.11.2023) Azərbaycanda səfərdə olmuşdur.

2023-cü ilin 18-19 dekabr tarixlərində Azərbaycan Respublikası Prezidentinin köməkçisi - Azərbaycan Respublikası Prezidentinin Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev Birləşmiş Krallıqda rəsmi səfərdə olmuşdur.

## 2. İki Ölkə Arasında Enerji Sahəsində Əməkdaşlıq

Hələ 3-6 avqust 1992-ci il tarixində Britaniya hökuməti Xarici işlər və birlik işləri departamentinin nümayəndə heyəti, sentyabr ayında isə sabiq baş nazir Marqaret Tetçer,

ölkənin ticarət və sənaye naziri Maykl Hezltayn və BP neft şirkəti rəhbərinin Bakıya səfərləri olmuşdu. 1992-ci ilin sentyabrında Azərbaycan Respublikası Müdafiə nazirliyi, 1993-cü ilin mayında isə Azərbaycan hökuməti nümayəndə heyətləri Londona səfər etmişdilər [8]. Azərbaycanda enerji sahəsində çalışan ingilis şirkətlərindən söz açarkən, BP şirkətinin fəaliyyətinə toxunmamaq mümkün deyildir. Dünyanın ən iri enerji şirkətlərindən biri olan BP şirkətinin Azərbaycanda fəaliyyətə başladığı dövr 1991-ci ili əhatə edir. Azərbaycanın enerji ehtiyatlarına böyük ehtiyacın olduğunu təkcə ingilis neft şirkətlərinin rəhbərləri deyil, eyni zamanda, Böyük Britaniyanın yüksəksəviyyəli rəsmiləri də bəyan edirdilər. Belə ki, Böyük Britaniya hökumətinin üzvləri ölkələrinin enerji təhlükəsizliyindən bəhs edərkən xüsusilə XXI əsrin ikinci onilliyində Azərbaycan və digər strateji bölgələrdən çatdırılacaq enerji daşıyıcılarına böyük ehtiyac duyacaqlarını dəfələrlə etiraf etmişdilər. Təsadüfi deyil ki, müstəqilliyinin ilk illərində gənc Azərbaycan Respublikasına kredit zəmanətləri vermiş ilk Qərb ölkəsi elə məhz Böyük Britaniya olmuşdur. 1995-ci ilin sonlarında Azərbaycan-Böyük Britaniya Ticarət və Sənaye Şurasının yaradılmasından sonra Azərbaycan Respublikasına böyük etimad göstərən Birləşmiş Krallıq hökuməti müvafiq memorandumun imzalanmasından cəmi bir neçə ay sonra Azərbaycana ixrac kreditlərinin verilməsi barədə qərar çıxarmışdır. Azərbaycan və Böyük Britaniya arasındakı siyasi münasibətlərin inkişaf perspektivlərindən bəhs edərkən, parlamentlərarası əlaqələrin rolu xüsusi vurğulanmalıdır. Bu əlaqələrin genişləndirilməsi və effektivliyinin artırılmasına ehtiyac vardır. Parlament mədəniyyətinin beşiyi olan Böyük Britaniyanın qanunverici orqanında fəaliyyət göstərən və bütün siyasi partiyaları əhatə edən Britaniya-Azərbaycan Parlament Qrupu Azərbaycan ilə əlaqələrin daha da inkişaf etdirilməsində müstəsna rol oynaya bilər. Təqribən 20 millət vəkilindən ibarət Qrup ikitərəfli münasibətlərin inkişafına böyük töhfə verir. Eyni zamanda, Azərbaycan parlamentində yaradılmış 13 millət vəkilindən ibarət Dostluq qrupunun fəaliyyətini də genişləndirmək lazımdır. Azərbaycan və Böyük Britaniya arasında əməkdaşlığın genişləndirilməsi perspektivləri baxımından prezident Heydər Əliyevin "Azərbaycan Respublikası ilə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığı arasında tərəfdaşlıq münasibətlərinin genişləndirilməsi tədbirləri haqqında" 25 avqust 1998-ci il tarixli Sərəncamının da böyük əhəmiyyəti vardır. Sənəddə iki ölkə arasında hərtərəfli əlaqələrin inkişaf etdirilməsi məsələləri öz əksini tapmışdır. Sərəncamın icrasına bir sıra nazirlik və hökumət təşkilatları cəlb edilmişdir [1,129]. Xüsusilə qeyd etmək lazımdır ki, Böyük Britaniyanın dəstəyi Azərbaycanın Ümumdünya Ticarət Təşkilatına tamhüquqlu üzv kimi qəbul edilməsi prosesində də həlledici ola bilər. Azərbaycan Respublikası ilə Birləşmiş Krallığın beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığı uğurla davam etdirilmiş və fundamental xarakter almışdır. Məsələn, iki ölkə 2011-2012-ci illərdə Azərbaycanın BMT Təhlükəsizlik Şurasında qeyri-daimi üzvlüyü çərçivəsində səmərəli əməkdaşlıq etmiş, Əfqanıstanda davamlı sülh və sabitliyin bərqərar olması istiqamətində birgə səylər göstərmişlər. İkitərəfli iqtisadi əlaqələr də bu dövrdən sonra məhz artan temp üzrə inkişaf etmişdir. 1992-ci ildən etibarən, Azərbaycanda fəaliyyət göstərən bp şirkəti ardıcıl surətdə "Əsrin müqaviləsi" çərçivəsində "Azəri-Çıraq-Günəşli" yataqları və "Şahdəniz" layihəsi kimi hasilatın pay bölgüsünə dair imzalanmış əsas sazişlərin həyata keçirilməsində iştirak etməyə davam etmişdir. "Şahdəniz2" layihəsi üzrə əsas texniki operator və aparıcı iştirakçı şirkətlərdən olan bp ilə əməkdaşlıq Azərbaycan üçün son dərəcə əhəmiyyət kəsb etməyə davam edir. Belə ki, 17 dekabr 2013-cü ildə Bakıda bu layihə üzrə yekun investisiya qərarı ilə bağlı imzalama mərasimi keçirilmiş və mərasimdə bir çox ölkələrin yüksək rəsmiləri ilə yanaşı, Birləşmiş Krallığın xarici işlər naziri Uilyam Heyq də iştirak etmişdir [10]. Məlumdur ki, 2011-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 501 milyon ABŞ dolları təşkil etmiş və Birləşmiş Krallıq Azərbaycanın 15-ci iri ticarət tərəfdaşı, Avropa İttifaqı ölkələri arasında isə 4-cü iri ticarət tərəfdaşı olmuşdur. Birləşmiş Krallıq yenə də Azərbaycanda ən iri xarici sərmayədar olaraq qalmaqdadır. Sonrakı illərdə Azərbaycanda 300-ə yaxın Britaniya şirkəti

fəaliyyət göstərmişdir. Azərbaycan Respublikasının Dövlət Statistika Komitəsinin rəqəmlərinə əsasən, 2012-ci ildə Britaniya sərmayələri Azərbaycan iqtisadiyyatına qoyulmuş bütün xarici sərmayələrin 51,7%-ni təşkil etmişdir.

Xüsusən energetika sahəsini əhatə etməklə Azərbaycan Respublikası və Birləşmiş Krallıq arasında iqtisadi əməkdaşlıq ikitərəfli münasibətlərin əsasını təşkil edir.

Azərbaycan Xəzər dənizinin Azərbaycan sektorunda neft və təbii qazın emalı və nəqli üzrə Birləşmiş Krallıqla əməkdaşlıq edir. Birləşmiş Krallığa məxsus aparıcı neft şirkətlərindən olan BP şirkəti 1992-ci ildən bəri Azərbaycanda aktiv fəaliyyət göstərir və "Əsrin müqaviləsi" (Azəri-Çıraq-Günəşli – AÇG) və Şahdəniz layihələri kimi hasilatın pay bölgüsü sazişlərində iştirak edir. BP şirkəti, həmçinin Şahdəniz 2 layihəsinin əsas texniki operatoru və iştirakçısıdır. 2013-cü ildə Şahdəniz 2 layihəsi üzrə Yekun İnvestisiya Qərarının Bakı şəhərində keçirilmiş imzalanma mərasimində digər ölkələrin yüksək vəzifəli rəsmiləri ilə birlikdə Birləşmiş Krallığın xarici işlər naziri Vilyam Haq da iştirak etmişdir.

AÇG-nin əlahiddə uğurlarının məntiqi nəticəsi kimi 2017-ci ilin 14 sentyabr tarixində Prezident İlham Əliyev və Birləşmiş Krallığın Avropa və Amerika regionu üzrə dövlət naziri Alan Dankanın iştirakı ilə Bakıda imzalanan yeni müqavilə ilə "Əsrin müqaviləsi"nin müddəti əsrin ortalarınadək (2049-cu ilin sonunadək) uzadılmışdır.

26 aprel 2018-ci il tarixində Azərbaycan Respublikasının prezidenti İlham Əliyev və Birləşmiş Krallığın Baş naziri Tereza Meyin iştirakı ilə Londonda SOCAR və BP arasında Xəzər dənizinin Azərbaycan sektorunda yerləşən Şimal Abşeron yatağında D230 Blokunun birgə işlənməsi və inkişaf etdirilməsi üzrə hasilatın pay bölgüsü haqqında saziş imzalanmışdır.

Birləşmiş Krallıq Azərbaycana yatırılmış investisiyanın həcminə görə hələ də birinci yerdədir. Bugünədək Birləşmiş Krallıq Azərbaycana 27 milyard ABŞ dolları miqdarında investisiya yatırıb və bu, Azərbaycana yatırılmış ümumi xarici sərmayənin 51.7 faizini təşkil edir. 2019-cu ildə Azərbaycan və Birləşmiş Krallıq arasında ticarət dövriyyəsinin həcmi 903 milyon funt sterlinq təşkil etmişdir. Hazırda Azərbaycanda Britaniyaya məxsus 600-ədək şirkət fəaliyyət göstərir.

**Nətıcə**

Nəticə olaraq qeyd etmək olar ki, siyasi və iqtisadi əməkdaşlıq iki ölkə arasında sosial-mədəni əməkdaşlığa da müsbət təsir göstərdi. 2016-cı ildən etibarən Baroness Nikolson Birləşmiş Krallığın Baş nazirinin Azərbaycan üzrə Ticarət elçisi kim fəaliyyət göstərir və bu, ikitərəfli iqtisadi əlaqələrin inkişafına öz müsbət təsirini göstərir. Azərbaycan və Böyük Britaniya arasındakı çoxtərəfli əməkdaşlığın digər sahələrində olduğu kimi mədəni əlaqələrin inkişaf tempi də qənaətbəxş hesab edilə bilər. Azərbaycanda fəaliyyət göstərən və Britaniya mədəniyyətini təbliğ edən müxtəlif humanitar təşkilatların təcrübələrini öyrənərək, Britaniyada Azərbaycan dili və mədəniyyətini yaymaq məqsədilə müvafiq işin aparılması çox faydalı olacaqdır. XXI əsrin başlanğıcında mədəni və humanitar əlaqələrin inkişafı yüksək templə davam etdirildi. Birləşmiş Krallıqda fəaliyyət göstərən Azərbaycan təşkilatlarının sayı əhəmiyyətli dərəcədə artdı. 1997-ci ildə təsis olunmuş İngiltərə-Azərbaycan Cəmiyyəti humanitar sahədə əməkdaşlığın inkişaf etdirilməsi prosesini sürətləndirdi və bu, sonrakı illərdə ikitərəfli mədəni əlaqələr üçün möhkəm zəmin yaratdı. Məlumdur ki, Birləşmiş Krallıq xaricdə təhsil almaq istəyən azərbaycanlı gənclərin maraq göstərdikləri əsas ölkələrdəndir. "2007- 2015-ci illərdə Azərbaycan gənclərinin xarici ölkələrdə təhsili üzrə dövlət proqramı" çərçivəsində dünyanın 27 ölkəsində 1842 azərbaycanlı tələbə təhsil aldı və bunlardan 419 nəfəri Birləşmiş Krallığın müxtəlif universitetlərindən məzun oldu [9]. Birləşmiş Krallıqda fəaliyyət göstərən Azərbaycan təşkilatları və Azərbaycan tələbə cəmiyyətlərinin sayındakı artım da humanitar əlaqələrin sonrakı illərdə artan temp üzrə inkişaf etdiyindən xəbər verir. Bunların arasında Avropa Azərbaycan Cəmiyyəti (TEAS), Azərbaycan Evi, London Azərbaycan Bazar Günü Məktəbi ("Kaspian Xəzri"), SOAS-Azərbaycan Tələbə Cəmiyyəti,

Ekseter-Azərbaycan Tələbə Cəmiyyəti, UCL-Azərbaycan Cəmiyyəti, eləcə də Kembric, Oksford, Mançester, Şeffildvə Aberdin tələbə cəmiyyətlərinin adlarını çəkmək kifayətdir [8]. Buna görə də Azərbaycan-Britaniya münasibətlərinin beynəlxalq iqtisadi əlaqələr sistemi kontekstində öyrənilməsi daha məqsədəuyğundur. Azərbaycan və böyük iqtisadi potensiala malik Britaniya arasındakı münasibətlərin yeni mərhələyə qədəm qoyduğunu söyləmək mümkündür.

**ƏDƏBİYYAT**


1. Həsənov Ə. M. Müasir beynəlxalq münasibətlər və Azərbaycanın xarici siyasəti. Bakı: Azərnəşr, 2005
2. Məmmədli E. C. Azərbaycan-Böyük Britaniya münasibətləri (1991-2003). Bakı: Adiloğlu, 2003
3. Бжезинский З. К. Великая шахматная доска. Москва: Международные отношения, 1998
4. Гулузаде В. М. Кавказ: среди врагов и друзей (статьи, интервью, выступления). Баку, 2001
5. Gaskarth J. British Foreign Policy Crises, Conflicts and Future Challenges. London, 2013
6. James L. The Rise and Fall of the British Empire. London, 2001
7. Lunn J. Miller V. Smith B. British Foreign Policy Since 1997. London, 2008, June 23
8. www.mfa.gov.az
9. www.britishcouncil.org
10. www.bp.com
11. www.bbc.com
12. www.theguardian.com